***Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin 29.10.2018-ci tarixli qərarı ilə təsdiq edilmişdir.***

**Vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən növbəlilik üzrə Dövlət hesabına hüquqi yardımın həyata keçirilməsi**

**QAYDALARI**

Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsində hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ, qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardımın ödənişsiz, dövlət hesabına göstərilməsi və hər kəsin səlahiyyətli dövlət orqanı tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ təsbit edilmişdir. “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda və digər qanunvericilik aktlarında Konstitusiya ilə təsbit edilmiş həmin hüquqların peşəkar vəkillər tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuşdur. Vəkillər tərəfindən dövlət hesabına həyata keçirilən hüquqi yardımın keyfiyyətinin artırılması və bununla əlaqədar vahid tələblərin müəyyən edilməsi bu Qaydaların hazırlanmasına zərurət yaratmışdır.Bu Qaydaların məqsədi tədqiqat, ibtidai istintaq və məhkəmə orqanlarının qərarlarıı əsasında dövlət hesabına həyata keçirilən hüquqi yardımın ümumi tələblərini və qaydasını müəyyən etməklə bərabər həmin işlər üzrə vəkillərin iştirakının bərabərliyi prinsiplərinin müəyyən edilməsi, ədalət mühakiməsində keyifiyyətli hüquqi yardımın həyata keçirilməsinin təmin edilməsi, dövlət hesabına həyata keçirilən hüquqi yardım zamanı vəkillər tərəfindən müəyyən olunmuş davranış qaydalarına riayət edilməsindən ibarətdir.

## 1. ÜMUMİ MÜDDƏLAR

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Konstitusiyasının, "Vəkillər və vəkillik fəaliyyəti" haqqında Azərbaycan Respublikası qanununun, digər qanunvericilik aktlarının və "Vəkillərin Davranış qaydaları haqqında" əsasnamənin tələblərinə uyğun olaraq hazırlanmışdır.
1.2. Bu Qaydalar qanunvericiliklə nəzərdə tutulmuş qaydada vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən cinayət, inzibati, mülki və digər işlər üzrə növbəlik əsasında dövlət hesabına hüquqi yardımın həyata keçirilməsini tənzimləyir.
1.3. Dövlət hesabına həyata keçirilən hüquqi yardım yalnız tədqiqat, ibtidai istintaq orqanlarının və məhkəmənin (bundan sonra səlahiyyətli dövlət orqanları adlandırlacaq) qərarı əsasında həyata keçirilir.
1.4. Vəkil qurumlarında fəaliyyət göstərən vəkillərin növbətçilik cədvəlləri vəkil qurumlarının rəhbərləri, fərdi qaydada fəaliyyət göstərən vəkillər üçün isə Vəkillər Kollegiyasının Rəyasət Heyətinin aparatı tərəfindən tərtib edilmiş və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti (bundan sonra - Rəyasət Heyəti) tərəfindən təsdiq edilmiş növbətçilik cədvəlinə uyğun olaraq həyata keçirilir.
1.5. Növbətçilik cədvəlləri Rəyasət Heyəti tərəfindən təsdiq edildikdən dərhal sonra vəkil qurumlarının rəhbərləri və Rəyasət Heyətinin aparatı tərəfindən səlahiyyətli və aidiyyəti qurumlara göndərilir.
1.6. Vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər fəaliyyət göstərdiyi şəhər, rayon inzibati ərazisində yerləşən səlahiyyətli dövlət qurumlarının qərarı əsasında dövlət hesabına hüquqi yardımı həyata keçirirlər. Zərurət yarandıqda Rəyasət Heyətinin razılığı (və ya

məlumatlandırılmaqla) digər şəhər, rayon inzibati ərazisində yerləşən səlahiyyətli dövlət qurumlarının qərarı əsasında dövlət hesabına hüquqi yardım həyata keçirilə bilər.

1.7. Növbətçi vəkillər növbətçilik cədvəli ilə yazılı imza etməklə və ya elektron qaydada poçt ünvanına göndərməklə tanış edilir.

1.8. Növbə səhər saat 09:00 başlayır və növbəti gün səhər saat 09:00-da bitir. Növbə günü növbətçi vəkil səhər saat 09:00-dan axşam saat 22:00-dək vəkil qurumunda, fərdi qaydada fəaliyyət göstərən vəkil isə fəaliyyət göstərdiyi ünvanda olmalı və yalnız səlahiyyətli dövlət qurumlarının qərarı əsasında hüquqi yardım göstərilməsi ilə əlaqədar oranı tərk edə bilərlər. Növbətçi vəkil axşam saat 22:00-dan səhər saat 09:00-dək onunla rabitə əlaqəsi saxlanılmasına şərait yaradır.

1.9. Növbətçi vəkil hər hansı bir üzürlü səbəbdən növbətçilik cədvləli ilə müəyyən edilmiş gündə növbədə ola bilmədikdə, bu barədə nəvbəyə ən azı iki gün qalmış əsaslandırılmış yazılı ərizə ilə vəkil qurumunun rəhbərinə, fərdi qaydada fəaliyyət göstərən vəkillər isə Rəyasət Heyətinin aparatına müraciət edə bilərlər. Bu halda vəkil qurumunun rəhbəri və ya Rəyasət Heyətinin aparatı elektron qaydada məlumatlandırmaqla həmin vəkili digər vəkillə əvəz edə bilər.

1.10. Şəhər və rayon inzibati ərazisində səlahiyyətli dövlət qurumlarının sayı və dövlət hesabına həyata keçirilə biləcək hüquqi yardımın yükü nəzərə alınmaqla vəkil qurumlarında hər gün üçün növbəyə üç nəfərədək növbətçi vəkil nəzərdə tutulur. Əlavə vəkil ayrılmasına zərurət yaranarsa, vəkil qurumunun rəhbəri Rəyasət Heyətini məlumatlandırmaqla digər vəkili cəlb edə bilər.[1]

1.11. Vəkil qurumunun rəhbəri istirahət və bayram günləri və ya hər hansı bir üzürlü səbəbdən işdə olmadıqda bu zaman vəkil orderi müdir müavini, eyni səbəblərdən o da işdə olmadıqda isə növbətçi vəkil tərəfindən imzalanır.

1.12. Növbədə olduğu gün vəkil səlahiyyətli dövlət qurumları tərəfindən dövlət hesabına hüquqi yardımın həyata keçirilməsi ilə əlaqədar qərar daxil olduqda həmin qərarın icrası ilə əlaqədar bütün zəruri tədbirlər görməli və ən qısa zamanda və ağlabatan müddətdə istintaq hərəkətlərində və ya məhkəmə iclaslarında iştirak etməlidir.

## 2.DÖVLƏT HESABINA HÜQUQİ YARDIM GÖSTƏRİLMƏSİNİN ƏSASLARI VƏ QAYDALARI

2.1. Cinayət, inizbati və mülki işlər üzrə dövlət hesabına hüquqi yardım yalnız təhqiqat, ibtidai istintaq orqanlarının və məhkəmənin qərarları əsasında həyata keçirilir.

2.2. Cinayət işlər üzrə üzrə bu Qaydanın 2.1-ci bəndində qeyd edilən səalahiyyətli dövlət qurumlarının qərarları icra olunması üçün birbaşa ərazi üzrə vəkil qurumlarına, fərdi qaydada fəaliyyət göstərən vəkillərə, digər işlər üzrə isə Bakı Apellyasiya, kassasiya instansiya, o cümlədən Bakı Ağır Cinayətlər və Bakı Hərbi məhkəmələrinin qərarları Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris mərkəzinə göndərilir. Mərkəz tərəfindən həmin qərarların ədalətli bölgüsü təmin edilməklə icra olunması üçün yerli vəkil qurumlarına və ya fərdi qaydada fəaliyyət göstərən vəkillərə göndərilir.[2]

2.3. Dövlət hesabına hüquqi yardımın həyata keçirilməsi ilə əlaqədar səlahiyyətli dövlət qurumlarından vəkil qurumlarına və ya fərdi qaydada fəaliyyət göstərən vəkillərə qərarlar daxil olduqda həmin qərarlar bunun üçün xüsusi olaraq ayrılmış jurnallardan qeydiyyatdan keçirilirlər. Qeydiyyat zamanı jurnalda aşağıdakı məlumatlar göstərilir:

- səlahiyyətli dövlət qurumunun adı;
- daxil olmuş qərarın təliqə məktubunun tarixi və çıxış nömrəsi;
- qərarın daxil olma tarixi və vaxtı;
- qərar qəbul etmiş vəzifəli şəxsin adı, soyadı;
- hüquqi yardım göstərən növbətçi vəkilin adı, soyadı;
- tərtib edilmiş orderin nömrəsi və tarixi;
- qərarın icrasının qəbulu ilə əlaqədar vəkilin imzası.

2.4. Xüsusi jurnalda qeydiyyatdan keçdikdən sonra vəkil qurumunun rəhbərinin dərkənarına əsasən həmin qərarın icrası ilk növbədə növbətçi vəkilə və ya əlavə vəkil ayrılmasına zərurət yaranarsa digər vəkilə həvalə edilir və bundan sonra order tərtib edilir.
2.5. Vəkil orderi aydın, səliqəli xətlə və bütün zəruri məlumatlar ixtisar edilmədən tam göstərilməklə tərtib edilir.
2.6. Vəkil qurumunun rəhbəri və ya fərdi qaydada fəaliyyət göstərən vəkil orderlərin tərtib edilməsinin düzgünlüyünə görə məsuliyyət daşıyır.

## 3. NÖVBƏTÇİ VƏKİLİN VƏZİFƏLƏRİ

3.1. Dövlət hesabına həyata keçirdiyi hüquqi yardımı "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun, prosessual və digər qanunvericilik aktlarının və "Vəkillərin davranış qaydaları haqqında" Əsasnamənin tələblərini rəhbər tutmaqla həyata keçirmək;
3.2. Digər fəaliyyətini əvvəlcədən müəyyən edilmiş növbətçilik cədvəlinə uyğun qurmaq;
3.3. Növbə günü müəyyən edilmiş müddətdə vəkil qurumunda olmaq və yalnız səlahiyyətli dövlət qurumlarının qərarı əsasında dövlət hesabına həyata keçirilən hüquqi yardımla əlaqədar oranı tərk etmək;
3.4. Növbətçilik cədvəli ilə qabaqcadan tanış olmaq və növbədə olduğu gün hər hansı bir üzürlü səbəbdən növbədə ola bilmədikdə bu barədə əsaslandırılmış yazılı ərizə ilə vəkil qurumunun rəhbərinə iki gün qabaqcadan müraciət etmək;
3.5. Növbədə olduğu gün hər hansı bir üzürlü səbəbdən vəkil qurumunu qısa müddət ərzində tərk etmək zərurəti yarandıqda vəkil qurumunun rəhbərinin razılığı ilə oranı tərk etmək və onunla rabitə əlaqəsinin yaradılmasına bütün növbə zamanı təmin etmək;
3.6. Növbətçilik cədvəli üzrə təyin edilmiş vəkil həvalə edilən iş üzrə mərhələ sona çatanadək iştirak etməlidir.
3.7. Dövlət hesabına hüquqi yardımın həyata keçirilməsi ilə əlaqədar səalhiyyətli dövlət qurumları tərəfindən bütün prosessual tələblərə riayət edilməsini araşdırmalı və bu barədə hər hansı bir pozuntu aşkar edilidikdə vəkil cinayət prosessual qanunvericiliyinə uyğun olaraq zəruri tədbir görməli və vəkil qurumunda fəaliyyət göstərən vəkillər bu barədə dərhal vəkil qurumunun rəhbərinə, fərdi qaydada fəaliyyət göstərən vəkillər isə Rəyasət Heyətinin aparatına məlumat verməlidir.

## 4. VƏKİLƏ QADAĞAN OLUNUR

4.1. Heç bir üzrlü səbəb olmadan növbədən imtina etmək;
4.2. Üzürsüz səbəbdən növbə yerini tərk etmək;
4.3. Dövlət hesabına hüquqi yardımın həyata keçirilməsi ilə əlaqədar olaraq növbətçi olduğu qeyri iş günləri, habelə iş günləri saat 18:00-dan sonra istisna olmaqla səlahiyyətli dövlət qurumlarının qərarlarını birbaşa qəbul etmək;
4.4. Vəkil qurumunun rəhbərinin məlumatı olmadan növbə üzrə vəzifələrinin həyata keçirilməsini digər vəkilə həvalə etmək;

## 5. NÖVBƏTÇİ VƏKİLİN HÜQUQLARI

5.1. Növbətçi vəkil Azərbaycan Respublikasının Prosessual və digər qanunvericilik aktları ilə nəzərdə tutulmuş hüquqları həyata keçirirlər.

## 6. VƏKİL QURUMUNUN RƏHBƏRİNİN VƏ RƏYASƏT HEYƏTİNİN APARATININ VƏZIFƏLƏRİ

6.1. Səlahiyyətli dövlət qurumlarının qərarları əsasında dövlət hesabına hüquqi yardımın növbəlik üzrə vaxtında həyata keçirilməsini təmin etmək;
6.2. Daxil olmuş qərarların ədalətli və bərabərlik prinsiplərinə əməl etməklə vəkillər arasında növbəliliyə riayət edilməsini təmin etmək;
6.3. Növbətçilik cədvəlini bu qaydalarda nəzərdə tutulmuş müddətdə tərtib edərək təsdiq edilməsi üçün Rəyasət Heyətinə təqdim etmək;
6.4. Növbətçilik cədvəli Rəyasət Heyəti tərəfindən təsdiq edildikdən sonra vəkil qurumunun yerləşdiyi rayon inzibati ərazisində yerləşən təhqiqat, ibtidai istintaq və məhkəmər orqanlarına təqdim etmək;
6.5.Növbətçilik cədvəlinə vəkillər tərəfindən riayət edilməsinə nəzarət etmək;
6.6. Hər hansı bir üzürlü səbəbdən növbətçi vəkil növbətçilik cədvəli üzrə öz vəzifə borcunu yerinə yetirə bilmədikdə həmin vəkilin digər vəkillə əvəz olunmasını təmin etmək;
6.7. Vəkilləri növbətçilik cədvəli ilə vaxtında tanış etmək;
6.8. Qanunverilcilik aktları, Vəkillər Kollegiyasının və vəkil qurumunun nizamnamələri müəyyən edilmiş digər vəzifələri həyata keçirmək;

## 7. VƏKİL QURUMUNUN RƏHBƏRİNİN VƏ RƏYASƏT HEYƏTİNİN APARATININ HÜQUQLARI

7.1. Növbətçi vəkil tərəfindən bu qaydalar üzrə üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə monitorinqini aparmaq;
7.2. Növbə günü nəvbətçi vəkildən başqa dövlət hesabına digər digər vəkilin hüququ yardımına zərurət yaranarsa həmin hüquqi yardımın həyata keçirilməsini digər vəkilə həvalə etmək;
7.3. Dövlət hesabına hüquqi yardımın həyata keçirilməsi ilə əlaqədar orderin tərtib edilməsi üçün zəruri məlumatların qərarda göstərilməsini, qərarın imzalanmasını, möhürlənməsini səlahiyyətli şəxs tərəfindən təqdim edilməsini tələb edə bilər.
7.4. Qanunverilcilik aktları, Vəkillər Kollegiyasının və vəkil qurumunun nizamnamələri müəyyən edilmiş digər hüquqları həyata keçirmək;

## 8. NÖVBƏTÇİLİK QAYDALARININ POZULMASINA GÖRƏ MƏSULIYYƏT

8.1. Vəkillər, vəkil qurumunun rəhbərləri və fərdi qaydada fəaliyyət göstərən vəkillər bu Qaydaların pozuımasına görə intizam məsuliyyəti daşıyırlar.

## 9. YEKUN MÜDDƏALAR

9.1. Bu Qaydalarda nəzərdə tutulmayan məsələlər Azərbaycan Respublikasının Prosessual və digər qanunvericilik aktları ilə tənzimlənir.
9.2. Bu Qaydalar Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

## QAYDALARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

1. 10.03.2021-ci il tarixli Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı ilə 1.10-cu maddənin birinci cümləsində “bir və ya iki nəfər” sözü "üç nəfərədək," sözləri ilə əvəz edilmişdir.
2. 15.09.2021-ci il tarixli Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı ilə maddə yeni redaksiyada verilmişdir: “2.2.Cinayət işlər üzrə üzrə bu Qaydanın 2.1-ci bəndində qeyd edilən səalahiyyətli dövlət qurumlarının qərarları icra olunması üçün birbaşa ərazi üzrə vəkil qurumlarına, fərdi qaydada fəaliyyət göstərən vəkillərə, digər işlər üzrə isə **Bakı** Apellyasiya, kassasiya instans**iya**, **o cümlədən Bakı Ağır Cinayətlər**

**və Bakı Hərbi məhkəmələrinin qərarları** Vəkillər Kollegiyasının **Hüquqi Yardım və Tədris mərkəzinə** göndərilir. **Mərkəz** tərəfindən həmin qərarların **ədalətli bölgüsü təmin edilməklə** icra olunması üçün yerli vəkil qurumlarına və ya fərdi qaydada fəaliyyət göstərən vəkillərə göndərilir."